Respublika.- 2022.- 28 may. S. 20.



**"Son 18 il ərzində həm Türkiyə, həm də Azərbaycan tərəfindən vahid siyasət formalaşdırılıb. Ondan daha əvvəl atamın dönəmində onun məşhur kəlamı var: "Bir millət, iki dövlət". Bunu indi bilməyən yoxdur. Amma bəziləri bəlkə də bilmir ki, bunun müəllifi Heydər Əliyev olmuşdur. Bu sözlər bizim üçün işıqlı bir yoldur. Bu vəsiyyətə, bu sözlərə sadiq olaraq biz hər istiqamət üzrə əlaqələrimizi gücləndirdik, yüksək səviyyəyə qaldırdıq...". Türkiyənin "CNN Türk" televiziya kanalına 2021-ci il avqustun 14-də müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyev bu fikirləri bildirərkən iki qardaş ölkə arasında gündən-günə möhkəmlənən əlaqələrdən danışmış, ağır günlərdə bir-birinin yanında olan xalqlarımızın tarixi nailiyyətlərindən söz açmışdır.**

# Gücümüz birliyimizdədir!

## *Azərbaycan-Türkiyə müttəfiqliyi bunu dünyaya bir daha sübut edir*

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra dost və qardaş ölkə ilə bütün sahələrdə əlaqələr quruldu və bu əlaqələr davamlı olaraq yüksələn xətt üzrə inkişaf edir. 1992-ci il yanvarın 14-də Türkiyə ilə diplomatik əlaqələrin qurulması Azərbaycan tarixində əlamətdar hadisə kimi yaddaşlara yazılıb. Bu il həmin əlaqələrin yaradılmasının 30 illik yubileyi qeyd edildi. Ötən bu illərdə acılı-şirinli çox məqamlar yaşanıb. İndi yaddaşlarımızı çözələyərkən bəzən sevinir, bəzən də məyus oluruq.

Müstəqilliyimizin bərpasından sonra Ermənistanın Azərbaycana torpaq iddiaları daha da artaraq münaqişə həddinə çatdı. Hadisələrin ilk günlərindən təklənən Azərbaycanın köməyinə gələn olmadı. Ermənistanın törətdiyi soyqırımından mülki əhalini xilas etmək istəyən Azərbaycana Türkiyə yardım əlini uzada bilmədi. Amma bu gün tam başqadır. Azərbaycan-Türkiyə əlaqələri yüksələn xətlə inkişaf edir, münasibətlərimizdə yeni parlaq səhifələr açılır.

2018-ci il iyun ayının 26-da Bakıda, Azadlıq meydanında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş parad keçirilirdi. Paradda güc nazirliklərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti də iştirak edirdi. Hərbçilərə və qonaqlara müraciət edən Azərbaycan Prezidenti dedi: "Bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir". Öz növbəsində Türkiyə Prezidenti qeyd etdi: "Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik".

2020-ci il sentyabrın 27-də ermənilərin növbəti təxribatlarına cavab olaraq hərbi əməliyyatlara başlayan Azərbaycana ilk dəstək də Türkiyədən gəldi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinə telefonla zəng edərək Ermənistanın hərbi təxribatı nəticəsində azərbaycanlı mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verdi. Rəcəb Tayyib Ərdoğan Türkiyənin hər zaman olduğu kimi, Azərbaycanın yanında olduğunu vurğuladı.

2021-ci il noyabrın 29-da Rusiyanın "Rossiya-1" telekanalına müsahibəsində Prezident İlham Əliyev müxbirin dronlarla bağlı sualını cavablandırarkən deyib: "Beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyil, çox dəqiq kəşfiyyat var idi. Qeyd etdiyiniz kimi, hər iki ölkədən - Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu... Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi". Dövlət başçısı Vətən müharibəsindəki tarixi qələbəmizdə böyük rol oynayan Türkiyədən alınmış silahlardan danışaraq deyib ki, Türkiyədən alınmış müasir silahlar, "Bayraktar"lar daxil olmaqla insan itkisinin çox olmamasına səbəb oldu. Əgər o silahlar olmasaydı, şəhidlər çox olacaqdı.

2020-ci il dekabrın 10-da Azadlıq meydanında Zəfər paradında da Azərbaycan və Türkiyə prezidentləri yenə də yanaşı idilər. Münasibətlərimizin daha da dərinləşməsində ötən il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsinin də xüsusi rolu var.

Bəyannamədəki bütün müddəalar keyfiyyətcə daha yüksək işbirliyinin təminatı üçün əlverişli imkan yaradır. Vətən müharibəsi dövründə qardaş ölkənin mənəvi və diplomatik dəstəyini heç zaman unutmaq olmaz.

Təəssüf ki, Azərbaycan-Türkiyə münasibətlərini qısqanclıqla qarşılayanlar da var. Bu, ölkəmizə və qardaş ölkəyə beynəlxalq səviyyəli ikili standartlarda da özünü göstərir. Məsələn, vaxtilə torpaqlarımızı işğaldan azad edəndə məşhur "Bayraktar" dronlardan istifadə olunanda xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. Rusiya-Ukrayna müharibəsində isə onu mələk adlandırdılar.

Türkiyənin operativ-taktiki, orta yüksəklikdə uçan qırıcı milli pilotsuz döyüş (PUA) təyyarəsi "Bayraktar Makina" şirkəti tərəfindən istehsal edilir. 2014-cü il iyunun 14-də tam yüklə həyata keçirilmiş uçuş sınağında 27.030 funt yüksəkliyə qalxmış və avqustun 5-6-sı tarixlərində həyata keçirilmiş uçuş testində tam yüklə 18.000 funt yüksəklikdə 4040 km məsafə qət etmiş və 24 saat 34 dəqiqə ərzində uçuş həyata keçirmişdir. Mülki aviasiya standartlarına uyğun olaraq hərbi məqsədlərə yarayan "Baykar Makina" tərəfindən yaradılmış "Bayraktar TB2" Bayraktar komandası tərəfindən əsas istehsal yeri Türkiyə olmaqla hər kəs üçün istehsal edilmişdir.

2007-ci ildə Müdafiə Sənayesi Xidməti tərəfindən rəqabət əsasında Taktik Pilotsuz Uçuş Aparatı Sisteminin İnkişaf Proqramı başladıldı. Bu proqram çərçivəsində Bayraktar Taktik PUA sisteminin uçuş testləri nümayiş etdirildi və Bayraktar Taktik İHA Sistemi, hədəflənən bütün performans meyarlarını uğurla tamamladı. Hazırda uçuş-enmə zolağından, o cümlədən hərbi gəmilərin göyərtəsindən qalxıb enə bilən "Bayraktar TB3" pilotsuz təyyarəsinin hazırlanması üzərində iş gedir.

Ümumilikdə isə Türkiyə müdafiə sənayesinin ümumi ixrac həcmi 2021-ci ilin sonunda rekord səviyyəyə çatıb. Türkiyə istehsalı olan 228 adda hərbi təyinatlı məhsul dünyanın 170 ölkəsinə çatdırılır. "Bayraktar TB2" ilə yanaşı, "Anka" operativ-taktiki hücum pilotsuz uçan aparatlarının, eləcə də silahlı "Karğu" kvadrokopterlərinin tədarükü davam etdirilir. Süni intellektə malik "Alpağu" portativ kamikadze dronları uğurla sınaqdan keçirilib. "Boyğa" pilotsuz uçan aparatının sınaqlarına başlanılıb. Vətən müharibəsindən sonra isə Türkiyənin "Bayraktar TB2" dronlarını mənimsəmək istəyən ölkələrin sayı artıb. Bu isə Türkiyə hərbi sənayesinin gücünün göstəricisidir.

Bütün zamanlarda liderlərin görüşü, qarşılıqlı rəsmi səfərləri hər iki ölkədə böyük maraqla qarşılanır və bu səfərlərin nəticəsi kimi iki dost-qardaş ölkə arasında bütün sahələr üzrə sıx əməkdaşlıq daha da möhkəmlənir. Ötən il Türkiyə Prezidentinin Azərbaycana 3 səfəri və xüsusilə də Rəcəb Tayyib Ərdoğanın Qarabağa ayaq basan ilk Türkiyə lideri olması da tarixə yeni səhifə kimi yazıldı.

Müharibədən sonrakı dövr regionda əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün imkanlar açıb. Xüsusilə Zəngəzur dəhlizinin açılması Azərbaycanın logistik imkanlarının daha da artmasına real zəmin yaradacaq. Artıq bu istiqamətdə xeyli işlər görülüb və onun həyata keçirilməsində də ölkələrimiz birgə fəaliyyət göstərir.

Ötən il oktyabrın 26-da Azərbaycana rəsmi səfər edən Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə birgə "Qarabağın hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər. Daha sonra prezidentlər Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işləri ilə tanış oldular. Zəngəzur dəhlizinin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun, "Dost Aqropark"ın təməlini qoydular.

May ayının 14-də isə Azərbaycan Prezidenti Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etdi. Dövlətimizin başçısı öz çıxışında hava limanının işinə uğurlar arzulayaraq bildirib ki, reallaşdırılan bütün bu səfərlər, görülən işlər əlaqələrimizi daha da dərinləşdirəcək, əməkdaşlığımızı möhkəmləndirəcək.

Bu günlərdə Bakı yenə iki qardaş ölkənin birgə tədbirinə evsahibliyi edir. Türkiyə Texnoloji Takımı vakfı (T3 vakıf), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı ilə Bakıda ilk dəfə "Teknofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı keçirilir. Bu münasibətlə ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Səlçuk Bayraktar bir sıra görüşlərdə iştirak edib. Azərbaycan Texniki Universitetində keçirilən tədbirdə isə Səlçuk Bayraktara AzTU-nun fəxri doktoru diplomu təqdim olunub. O, müəllifi olduğu müasir texnologiyalar, eyni zamanda hazırda Türkiyənin ilk uçan avtomobili olan "CEZERİ" və Türkiyənin ilk pilotsuz döyüş təyyarəsi olacaq "Bayraktar Kızılelma" (MİUS) layihələri və üzərində çalışdığı yeni tədqiqat işləri barədə məlumat verib.

Təbii ki, bu cür tədbirlər əsrlərin sınağından keçib möhkəmlənən qardaşlıq və dostluğumuzun daha uzunömürlü və əbədi olmasına zəmin yaradır. Ölkələrimiz, xalqlarımız birgə olduqca, gücümüz, qüdrətimiz də artacaq. Gücümüz birliyimizdədir..

**Zümrüd QURBANQIZI**
**"Respublika"**